***Allahverdi Nüsi oğlu Əlimirzəyev***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*«Azərbaycanın qədim tarixi» şöbəsi*
E-mail: alimirzoev.60@mail.ru

# ALBAN TAYFALARININ ERKƏN TARİXİ ÖN ASİYANIN MİXİ YAZILARINDA

**Açar sözlər:** Albaniya, Kaşşu Babilistanı, Kaspi tayfası, Urartu kitabələri, Anadolunun kaşka tayfası, qədim Şərur

**Ключевые слова:** Албания, Касситская Вавилония, каспии, Урартские надписи, племя кашка Анатолии, древний Шарур

**Key words:** Albania, Kassite Babylonia, Caspians, Urartian inscriptions, kashka tribes of Anatolia, ancient Sharur

## I. Kaspilər

Müasir tarixşünaslıqda belə bir fikir formalaşıb ki, Azərbaycan Albaniyasına dair yazılı mənbələrin ən qədim məlumatı e.ə. IV əsrin ikinci yarısına təsadüf edir. Yunan müəllifi Flavi Arrianın (95-175-ci illər) «Anabasis» əsərində verilən məlumata görə albanlar Qavqamelada baş verən döyüşdə Əhəməni şahı III Daranın ordusunda iştirak etmişlər [III, 8, 4]. Herodotun (e.ə. 480-424-cü illər) «Tarix» əsərində [III, 91, 93; VI, 62, 86, 110] kaspi və uti kimi tayfaların xatırlanması Alban tayfalarının e.ə. IV əsrin ikinci yarısında vahid hərbi-siyasi qüvvə halında birləşməsi prosesinə qoşulduğunu söyləməyə əsas verir.

İndiyədək albanların etnosiyasi tarixinin öyrənilməsi zamanı antik dövr yunan-Roma və ilk orta əsr erməni və gürcü mənbələri ilə kifayətlənmişlər. Ön Asiyanın daha qədim qaynaqlarında – mixi yazılı kitabələrdə elə məlumatlara rast gəlinir ki, onlar albanların erkən tarixinə işıq salmağa, onların etnik mənşəyinin müəyyənləşdirilməsinə ciddi təsir göstərə bilər. Təqdim olunan məqalə bu məlumatların təhlili istiqamətində dünya tarixşünaslığında ilk təşəbbüsdür.

Urartu mətnlərini tədqiq edən İ.İ.Meşşaninov 1927-ci ildə belə nəticəyə gəlmişdi ki, e.ə. VIII əsrdə albanların siyasi birliyi mövcud idi [16, c. 29, 33, 218]. Bu siyasi birlik Urartu çarı II Sardurinin (e.ə. 760-730-cu illər) Göyçə gölü hövzəsindəki məskənlərə hərbi yürüşü zamanı dağıntıya məruz qalmışdır. Hərbi yürüşü tərənnüm edən kitabə Van qayasının «Xəzinə qapısı» adlanan şimal yamacına həkk olunub. Kitabədə deyilir: «Həmin il[1] üçüncü dəfə (?) Arkukini ölkəsinə yürüş etdim. Arkukini ölkəsinə qalib gəldim. Adahuni, Luipruni, Eşumuai, Kamniui, Kuaalbani, Uhuni, Teriani ölkələrini, 20 möhkəmləndirilmiş istehkamı döyüşdə işğal etdim, 120 məskəni bir gündə zəbt etdim, qalaları dağıtdım, yurdlarını yandırdım, ölkəni taladım, kişi <və> qadınları oradan apardım» [14, № 155 F].

Bizi maraqlandıran toponim mixi hecalı işarələrlə **Qu-’a-al-ba-ni** formasında yazılıb. Toponimin lokallaşdırılması mətndə onunla yanaşı xatırlanan məntəqələrə əsasən həyata keçirilir. Bu məntəqələrdən Arkukini II Sardurinin Göyçə gölünün cənub sahilində yerləşən Zaqalu kəndi yaxınlığından tapılmış başqa bir kitabəsində də xatırlanır [14, № 161]. Adahuni və Teriani isə Urartu çarı I Rusanın (e.ə. 730-714-cü illər) Kolaqran (indiki Sovinar; Göyçə gölünün cənub-qərb sahilində) kəndi yaxınlığından tapılmış kitabəsində də qeydə alınıb [14, № 266: **Te-ri-ú-i-ša-i-ni**]. Kolaqran kitabəsində Adahuni «gölün bu tərəfində» ifadəsi ilə xarakterizə olunub. «Xəzinə qapısı» kitabəsində isə bu ifadə işlədilmədiyindən Adahuni ölkəsinin qonşuluğundakı Kuaalbani toponimini Arpaçayla Göyçə gölü arasındakı ərazidə lokalizə edirlər [14, c. 437; 18, Sxematik map].

İndiyədək «Kuaalbani» yer adının etimoloji təhlili aparılmadığından onun sonralar

[1] Yürüşün e.ə. 752-740-cı illər arasında baş verdiyi ehtimal olunur.

yunanlaşdırılmış «Albaniya» termini ilə bağlılığı ideyası şübhə ilə qarşılanırdı. Şübhəni artıran amillərdən biri də toponimin Albaniyanın antik dövrdəki hüdudlarından kənarda lokalizə olunması ilə bağlı idi. Son zamanlar **-ni** sonluğunu toponimdən ayırmaq təklif olunur ki, bu halda toponim «Kuaalba» kimi oxunur. Toponimin etimoloji izahı ilə bağlı araşdırmalarımız belə yanaşmanın yanlış olduğunu göstərir. «Xəzinə qapısı» kitabəsində sadalanan 8 toponimin ilk beşinin qarşısında etnos, peşə, ixtisas terminlərini bildirən ideoqram yazılıb. Yer adlarını peşə və ixtisas terminlərindən fərqləndirmək üçün, digər Urartu kitabələrində olduğu kimi, bu mətndə də Akkad məkan determinativinə biayni (=Urartu) sonluğu əlavə olunub: **MAT-ni.** Bu onu göstərir ki, siyahıdakı ilk 5 toponim etnos adından yaranmışdır. Maraqlıdır ki, beşinci toponimin yazılışında Akkad məkan deferminativinə onun biayni leksikonundakı qarşılığı (**e-ba-ni** «ölkə») əlavə olunub. Son iki toponimin sonluğu əvvəlki dörd toponimin yazılışına müvafiq strukturla tərtib olunub. Yalnız «Kuaalbani» toponiminin əvvəlinə və sonluğuna Akkad məkan determinativi əlavə edilib. Bu fərqləndirici əlamət «Kuaalbani» toponimini mətndəki digər yer adlarından ayırmaq üçün edilib.

«Kuaalbani» toponimindəki **-ni** sonluğu biayni dilində bir neçə funksiyada (çıxışlıq hal şəkilçisi, üçüncü şəxsin təki, birgəlik hal suffiksi, mənsubiyyət göstəricisi və s.) çıxış edə bilərdi [14, c. 54, 57; 16, c. 227-231]. Əksər hallarda bu sonluğa yer adlarında təsadüf olunur. Məkanla bağlı anlayışlar da bu sonluqla təchiz olunurdu: **eba-ni** «ölkə», **baba-ni** «dağ», **sui-ni** «göl» və s. Bəzən bu qəbildən olan anlayışlarda, hətta coğrafi adlarda, **-ni**_şəkilçisi əvvəlki funksiyasını itirərək sözün kökündə qərarlaşırdı: **siu-ni** «göl» > Sevan, **Abae-ni** > Biaina (Urartunun yerli adı) və s. Maraqlıdır ki, yer adları üçün xarakterik olan **-ni** sonluğu biayni mətnlərində bəzən yazılmırdı. Məsələn:

1. KUR. E-ti-u-ni [14, № 127] =KUR. E-ti-i-ú-he [14, № 155 C].
2. KUR. Al-zi-ni [14, № 28] = KUR. Al-ze-e [14, №№ 372, 373].
3. KUR. Aš-šur-ni [14, №№ 127, 156] =KUR. Aš-šur [14, № 264].
4. KUR. Bu-uš-tu-ú-ni [14, № 127] =KUR. Bu-uš-tu-ú-e [14, № 127].
5. KUR. E-ri-a-hi-ni [14, № 155 B, E, F] =E-ri-a-hi [14, № 156 S].
6. KUR. İ-ga-ni [14, № 155 F] =KUR. İ-ga-a [14, № 128 B].
7. URU. İr-du-a-ni [14, №127]=URU. İr-di-ia [14, № 27] və s.

Tədqiqatçıların bir qisminin fikrinə görə bizi maraqlandıran toponim «Kuaalbani» [13, c. 69, 230, 267; 5, c. 114], digərlərinə görə isə «Kuaalba» [19, p. 68] adlanırdı. Toponimin əvvəlindəki **ku-** (və ya **kua-**) sözü biayni dilində «tərk etmək», «dağıtmaq» anlamında işlənirdi [17, s. 165-167, 170-171]. Maraqlıdır ki, mixi kitabələrdə xatırlanan bəzi toponimlərin əvvəlinə müəyyən dövrdən sonra bu sözün əlavə edildiyinin şahidi oluruq. Məsələn:

1. Urartu çarı Menuanın dövründə (e.ə. 810-781-ci illər) «Arsuniuni» (**Ar-su-ú-ni-ni, Ar-su-ni-ú-i-ni**) adlanan şəhər [14, №№ 27, 97, 99] onun oğlu I Argiştinin (e.ə. 781-760-cı illər) kitabəsində **Ku-Ar-za-ni-i-ni** «ölkəsi» kimi qeydə alınıb [14, № 127].
2. Menuanın və I Argiştinin mətnlərindəki Luşa ölkəsi (**Lu-ú-sá-a, Lu-ša-a-e**) [14, №№ 20, 128] I Argiştinin bir qədər sonra tərtib olunmuş Xorxor salnaməsində **Ku-La-ši-ni** kimi qeyd olunub [14, № 127].
3. I Argiştinin yazılarında eyni toponim bir halda **Ú-lu-a-ni-e-i** [14, № 131], digər halda isə **Ku-Ú-li-a-i-ni** [14, № 132] kimi yazılıb.

Bundan əlavə, Menuanın və II Sardurinin yazılarında Erekua (və ya Erkua) adlı «ölkə» xatırlanır [14, №№ 31, 34, 35, 155A]. Biayni dilində bu ad «xaraba yer», «tərk olunmuş ərazi» anlamını verir [17, c. 107-108, 165-167]. Ehtimal ki, Urartu mətnlərindəki **Qu-ú-a-ni** [14, № 24], **Qu-ár-li-ni** [14, № 281] kimi yer adları da viran qoyulmuş məskənlərlə bağlı idi.

Sadalanan faktlar göstərir ki, **ku** (və ya **kua-**) sözü yer adlarına əlavə olunurdu. Tərk edilmiş, dağıdılmış yerlərin, başqa sözlə xarabalıqların hərbi salnamələrdə xatırlanması

təbii sayılmalıdır; real yaşayış məskənləri olmasalar da, hərbi yürüşlərin marşrutu zamanı onların yad edilməsi vacib idi.

Bütün bu deyilənlər «Xəzinə qapısı» kitabəsində xatırlanan Kuaalbani toponiminin mənasını «Xaraba Albani» kimi izah etməyə əsas verir. Ola bilsin ki, bu toponimi Aşşur çarı I Tiqlatpalasarın (e.ə. 1114-1077-ci illər) Kalat-Şerkətdən tapılan gil silindri üzərindəki mətndə 23 «Nairi ölkəsindən» biri kimi təqdim olunan **Al-ba-ia** ilə eyniləşdirmək lazımdır [20, p. 21, Text A.O.87.1]. Həmin mətndə Nairi ittifaqına daxil olan «ölkələrdən» biri, **Šu-ru-ri-ia**, müasir Şərurla eyniləşdirilir [3, s. 112]. Hər iki yer adındakı **-ia** suffiksi toponimik sonluqdur.

Beləliklə, mixi yazılı kitabələrin təhlili göstərir ki, e.ə. XII əsrin ikinci yarısında Urartu tayfa ittifaqının yayıldığı ərazidən xeyli şimalda «Albaya» adlı yaşayış yeri mövcud olmuş, lakin e.ə. VIII əsrin ortalarına yaxın siyasi əhəmiyyətini itirmişdir.

Maraqlı faktdır ki, oxşar adda Urartu hüdudlarına ən yaxın qədim yaşayış yeri Naxçıvan bölgəsində, Şərurun Axura kəndi yaxınlığındakı Albantəpə arxeoloji kompleksində qeydə alınıb. 1979-1985-ci illərdə burada və qonşuluqdakı Qoşatəpə, Axura Kültəpəsində aparılan kəşfiyyat xarakterli arxeoloji qazıntılar zamanı qalınlığı bəzi yerlərdə 10 metrə çatan mədəni təbəqə aşkar olunmuşdur. Axura çayının (Arpaçayın qolu) hər iki sahili boyu yerləşən bu abidələr xronoloji baxımdan Tunc dövrünün sonundan (e.ə. XII əsr) antik çağın sonuna qədərki (b.e. II əsri) dövrü əhatə edir. Tapılan əşyaların böyük əksəriyyəti antik dövr Albaniyası üçün səciyyəvi xüsusiyyətlər daşıyır. Qazıntılar zamanı müxtəlif forma və ölçülü saxsı qab fraqmentləri, ev heyvanlarının (at, it, keçi, qoyun və qaramal) sümükləri, dəmirdən düzəldilmiş əmək alətləri və silahlar (oraq, bıçaq, ox və nizə ucluqları), bəzək əşyaları və s. tapılmışdır. Axura Kültəpəsində istehkam tipli qədim tikilinin qalıqları aşkarlanmışdır. Aşkarlanan kül təbəqəsi Axura çayı hövzəsindəki məskənlərin yandırıldığından xəbər verir [5, s. 8-19].

Dilçilik materialının təhlili və müvafiq arxeoloji dəlillər I Tiqlatpalasarın və II Sardurinin kitabələrindəki «Albaya» və «Kuaalbani» yer adlarının eyni ərazi ilə bağlı olduğunu və Şərurda Axura çayı hövzəsini əhatə etdiyini söyləməyə əsas verir. Bu ərazi e.ə. 767-764-cü illərdə də urartuluların dağıdıcı yürüşlərinə məruz qalmışdır. Bu barədə Sarıqamışdan (Qars vilayəti) tapılmış kitabədə deyilir:

«Ahuria–Aştuhi ölkəsinin şəhərini… Aştuhinin bütün (?) taxıl anbarlarını (?) ələ keçirdim» [14, № 130].

Hərbi yürüşün davamında Göyçə gölünün cənub və qərbini əhatə edən Etiuni ölkəsi viran qoyulmuşdur. Bu marşrut kitabədəki Ahuria (**URU A-hu-ri-a-ni**) toponimini müasir Şərur rayonundakı Ahura kəndinin adı ilə eyniləşdirməyə və onun yerində lokalizə etməyə əsas verir.

«Alban» termininin ilkin formalarının (Albaia, Kuaalbani) e.ə. XII əsrin sonlarından etibarən Naxçıvan bölgəsində qeydə alınması burada cərəyan edən etnik proseslərlə, o cümlədən gələcəkdə Alban tayfa birliyində təmsil olunacaq etnik qurupların qonşu ərazilərdə də yayılmaları ilə bağlı idi. Bölgəyə edilən hərbi yürüşlərlə əlaqədar bəzi etnik qrupların izləri Urartu mətnlərində yer adları və ya etnonim kimi qalıb.

1. Anani Şirakasiyə aid edilən «VII əsr erməni coğrafiyası» əsərində **pusx** adlı Alban tayfası xatırlanır [7, c. 71-72]. «Xəzinə qapısı» kitabəsində II Sardurinin qoşunları tərəfindən Etiuni ölkəsi yaxınlığındakı Puzuni vilayətinin yağmalanmasından xəbər verilir [14, № 155 F]. Pusx etnonimi ehtimal ki, **Pushi** hurri formasından törəmədir. Buradakı **-h** hurri toponimik suffiksi «Xəzinə qapısı» kitabəsində müvafiq biayni suffiksi (**-ni**) ilə əvəz olunub. Fonoloji baxımdan Puzuni toponimi Şərur rayonundakı Püsyan kəndinin adını xatırladır. 1981-1982-ci illərin arxeoloji kəşfiyyat işləri zamanı buradan e.ə. I - b.e. II əsrlərinə aid qutu və torpaq qəbirlər, təkqulplu, lüləli və digər formalı saxsı qablar tapılıb. Püsyan yaxınlığından Urartu tipli tunc kəmərin fraqmenti də aşkar olunub [5, s. 80-81, şəkil 13]. Lakin coğrafi baxımdan Püsyan kəndini Urartu kitabəsindəki Puzuni vilayəti

ilə eyniləşdirmək olmaz.[1]

2. Antik dövr və erkən orta əsr qaynaqları leqləri Albaniyada geniş yayılmış tayfalardan hesab edir. Leq məskənləri əsasən Samur çayı hövzəsində lokallaşdırıldığından elmi ədəbiyyatda bu etnosu daha çox müasir ləzgilərin və lakların əcdadı kimi təqdim edirlər. Hesab olunur ki, onlar haqqında ilk məlumat Strabonun «Coğrafiya»sında (XI, 5, 1) qeydə alınıb.

«Xəzinə qapısı» kitabəsində II Sardurinin e.ə. 750-ci ildə Etiuni ölkəsinə və Liki vilayətinə (**KUR. Li-qi**) hərbi yürüşü təsvir olunur [14, № 155A]. Bu vilayət Karvansara (indiki İcevan) yaxınlığında lokallaşdırılır [19, p. 50].

3. «VII əsr erməni coğrafiyası» əsərində Alban tayfaları sırasında **baqan** etnoniminə də təsadüf olunur. Van şəhəri yaxınlığından tapılan sümük qolbaq üzərindəki fraqmentar mətndə bu etnonimə bənzər yer adı: **KUR Pa-qa-ia hu<-bi>** «Paqaya vilayətinin vadisi» yazılıb [14, № 365]. Bu yer adında da **-ia** toponimik sonluq kimi çıxış edir. Görünür antik dövr və erkən orta əsr qaynaqlarında adı keçən tayfa adlarının əksəriyyəti yer adlarından yaranıb.

Şübhə yoxdur ki, «Alban» termini əvvəllər Cənubi Qafqazda məskunlaşan avtoxton etnoslardan birinə aid olmuş, antik dövrdə yunanlaşdırılaraq «Albaniya» formasına çevrilmiş və etnik mənsubiyyətindən asılı olmayaraq onlarla eyni hərbi-siyasi birliyə daxil olan qonşu tayfalara da şamil olunmuşdur. Bu proses kifayət qədr inkişaf etmiş, müəyyən siyasi təcrübəsi olan, daha geniş ərazilərdə təmsil olunan etnosun mövcudluğu şəraitində baş tuta bilərdi. Alban tayfalarından bu şərtlərə daha çox uyğun gələni kaspi etnosu idi. Hazırda kaspiləri (yunanca **κασπιοι**) antik müəlliflərin əsərlərində xatırlanan **κοσσαιοι** (Strabo., XI, 13, 6, XVII, 1, 8; Diod., XVII, 5; Just., X, 3; Polyb., V., 44 və s.), **κισσιοι** (Herod., III, 91), Aşşur-Babil kitabələrindəki **kaššu**, hurri mətnlərindəki **kaššuhai** etnonimləri ilə eyniləşdirirlər [22, pp. 189, 190, 195-199, 303; 15, c. 91-109; 7, c. 189-193].[2]

350 il (e.ə. 1595-1140-cı illər) Babilistanda hökmranlıq edən kaşşulardan (elmi ədəbiyyatda «kassilər»)[3] 40-a yaxın teonim (tanrı adı), 440-a yaxın antroponim (şəxs ismi), 40-dan çox at ayaması, 30-dan çox söz, 8 bitki termini məlumdur. Lakin elmə kaşşu dilində tərtib olunmuş mətn məlum deyil.

Nuzi şəhərinin (müasir İraqda Yorğantəpə) e.ə. II minilliyin ortalarına aid təsərrüfat sənədlərində mixi işarələrlə kaşşu mənşəli bir şəxsin ismi: **Bur-ra-al-ba-an** qeydə alınıb. Adın tərkibindəki **Burra-** komponent qismində kaşşulara məxsus digər teofor adlarda da (**Burra-Enlil, Burra-Harbe, Burra-Marduk, Burra-Laquda, Burra-Maşhu** və s.) qeydə alındığından, ehtimal olunur ki, adın ikinci komponenti (-**Alban**) tanrı adı olmuşdur. Bu səbəbdən **«Burra-Alban»** teofer ismini «Tanrı Albanın himayəsində» kimi mənalandırırlar [18, s. 50, 101, 221; 23, s. 867]. Alban teonimi kaşşu dövrü Babil sənədlərində qeydə alınmış Laban tanrı ismi ilə eyniləşdirilir [18, s. 101-102].[4]

Güman olunur ki, **alba-** qrammatik kateqoriya kimi sifətlərdən biri ilə bağlı idi [23, s. 867]. Bu mülahizə **MAT Albada, ALU Bit-Albada** kimi toponimlərdə özünü doğruldur [18, s. 46, 91]. Məhz kaşşuların hakimiyyəti dövründə Diyala çayının (Dəclənin qolu) aşağı axarındakı ərazilər (müasir Qəsri-Şirin, Xanikin və Sarıpul) Halman (və ya Hulvan, Alvan[5]), Sasanilər zamanında hlp'n, Abba-

---

[1] Urartu kitabəsindəki Puzuni e.ə. II minilliyin ortalarında Anadolunun şimal-şərqində Kaşka tayfasının məskunlaşdığı Pushuri vilayəti ilə [8, c. 187] eyniləşdirilə bilər.

[2] Qədim yunan dilində fışıltılı **-ş-** səsi olmadığından yad sözlərin yazılışı zamanı onu **-s-** fonemi ilə əvəz edirdilər; bu səbəbdən **kaššu** etnonimi **κοσσιοι** formasında verilirdi.

[3] Kaşşular özlərini **qalzu** və ya **qaldu** adlandırırdılar [18, s. 131-132]. Sonralar bu termin rusdilli ədəbiyyatda «xaldey», «koldun», bizdə isə «kəldani» formasını aldı.

[4] Laban teonimi antik dövrdə Albaniyada qeydə alınmış lpen etnonimi ilə müqayisə oluna bilər [7, c. 151-154].

[5] Şumer mənşəli mixi yazı sistemlərində **-v-** foneminin qrafik ifadəsi mümkün olmadığından onu Pİ ideoqramı vasitəsi ilə qeyd edirdilər. Bu səbəbdən Alvan və Hulvan toponimləri müvafiq olaraq «Alpan» və «Hulpan» kimi də oxuna bilər.

silər dönəmində isə Halvaan adlanırdı. Babilistanı İran yaylasının mərkəzi (qədim Mada) ilə birləşdirən əsas kommunikasiya xətti buradan keçdiyindən Eratosfen bu yeri «Midiya darvazaları» adlandırırdı. Maraqlıdır ki, Diyala çayının buradan axan qollarından biri indi də **Abi-Alvan** adlanır [22, p. 11, 13][1].

Kaşşuların ana vətəni və etnik mənşəyinə dair elmdə fərqli fikirlər mövcuddur. Bəzi tədqiqatçılar Luristanı onların vətəni hesab edir [9, c. 121-122]. E.ə. XXIII əsrin sonunda Urmiya gölündən cənub-şərqdəki torpaqlara hərbi yürüş edən Elam hökmdarı Puzur-İnşuşinakın qələbə stelasında **Kaš-še-en** toponiminin (müasir Kaşan) [9, s. 48] xatırlanması və müasir Qəzvin şəhərinin adı kaşşuların Luristandan şərqdə də yayıldıqlarına işarə edir. E.ə. XII əsrin ikinci yarısında Kiçik Zab çayının (Dəclənin qolu) yuxarı axarındakı yerlərə hərbi yürüşü ilə əlaqədar Elam çarı Şilhak-İnşuşinak kaşşu mənşəli toponimləri (**Murattaş, Kattarzah, Pit-Naşumalia** və s.) işğal etdiyi barədə məlumat verir [26, № 54, s. 129]. Sonralar kaşşuların bir qrupu aşşurluların «Gündoğan dəniz» adlandırdıqları Xəzərə öz etnik adlarını («Kaspi») verdilər.

K.Yaritsin qənaətinə görə kaşşuların vətəni Anadolunun şimal-şərqində yerləşirdi [24]. Bu mülahizə e.ə. XVI-XIII əsrlərin het mətnlərində və sonrakı dövrün Aşşur yazılarında **kaşka** (və ya **kaska**) tayfası ilə əlaqədar xatırlanan məlumatlarla əsaslandırılır. Həmin mətnlərdə kaşkalara məxsus şəhər və dağ adları (Kaşşu, Kaşşula, Kaşşimul, Kaşşiya, Kaşşia, Taq-qaşta və s.) qeydə alınıb [8, c. 166-191]. E.ə. II minilliyin sonlarından Aşşur kitabələrində Kaşiari oronimi (müasir Tur-Abdin dağı) xatırlanır [13, c. 14, 16; 6, c. 106-107]. **Kaš-** elementi ilə başlayan bir neçə söz kaşkların cənub-şərq qonşuları olan hurrilərin mətnlərində qeydə alınıb: **kaššapte** «cadu», «tilsim», «ovsun», **kašti** «qövs», «hilal» [25, pp. 44, 138, 139].[2]

Babilistanın işğalına qədər kaşşular (və ya kaşkalar) Habur çayı hövzəsində (Fəratın orta axarı) özlərinin Hana çarlığını yaratmışlar [12, c. 386, 391, 419, 420]. Babilistanda hakimiyyətlərinin süqutundan sonra kaşşuların bir qismi buranın akkad mənşəli əhalisinə qarışmış, əksəriyyəti isə məskunlaşdıqları əvvəlki yerlərinə köç etmişlər. Salnamələrin məlumatına görə III Salmanasarın zamanında (e.ə. 859-824-cü illər) onların Namar (və ya Namri; Diyala çayı hövzəsində) və Allabriyada (Urmiya gölündən cənubda) Aşşur dövlətinin maraq dairəsində olan kifayət qədər güclü siyasi birlikləri mövcud idi. Bu siyasi birliklərin çarları kaşşu mənşəli hökmdar titulu (**yanzi**) daşıyırdılar [13, c. 39, 138-139]. II Sarqonun zamanında isə (e.ə. 722-705-ci illər) Hubuşkia ölkəsinin (Van gölündən cənub-şərqdə) çarının da bu titulu daşıdığı məlumdur. Həmin dövrdə yaşayan Manna çarı İranzunun adında da bu titulun olduğu söylənir [13, c. 138-139]. Madanın Kar-Kaşşı (və ya Kar-Kasiya; Həmədandan qərbdə) şəhəri də kaşşularla əlaqələndirilir [hərfən: «Kaşşuların koloniyası». Bax:9, c. 276].

Ehtimal olunur ki, kaşkalar Kiçik Asiyanın digər avtoxton əhalisi hatlarla eyni dildə danışırdılar [8, c. 210].[3] Hat dilində Ay tanrısının «Kaşka» adlandığını nəzərə alaraq güman olunur ki, bu adı əvvəllər Aya sitayiş edən bir tayfa daşımış, sonralar bu ad geniş tayfa birliyinə şamil olunmuşdur [8, c. 199-200]. Hatların sitayiş etdiyi tanrılardan biri (Ay tanrısının zövcəsi) «Kaşhala» adlanırdı. «Kuşuh» adlı Ay tanrısı hurri panteonunda da qeydə alınıb [11, c. 43]. Bu yerdə albanların Ay ilahəsinə (yunanca qarşılığı Selena) sitayiş etdikləri barədə Strabonun (XI, 4, 7) məlumatını yada salmaq yerinə düşür. Bütün bu faktlar teonim və etnonimlərin kaş qrupu tayfalarında üst-üstə düşməsini və «Alban» termininin də konkret tanrı ilə bağlı olduğunu

[1] Plini «Təbii tarix» əsərində [VI, 39] Albaniyanın ərazisində Xəzərə axan Alban və Kas çaylarının adını çəkir.
[2] **Kaš-** komponent qismində kaşşu antroponimlərində də qeydə alınıb: **Kaš-akti-Šuqab, Kaš-til, Kaš-akti-yanzi, Kaš-til-en-Sah, Kaš-akti-Ban, Kaš-til-ias, Kaš-til-li** [18, s. 61, 62].
[3] Yunan forması «kaspi» mixi yazılı mənbələrdə, o cümlədən elam mətnlərində qeydə alınmadığından etnonimdəki **-p** sonluğunun elam dilində eyni səslənən etno-ümumiləşdirici şəkilçi ilə eyniləşdirilməsi fikri mübahisəli olaraq qalır [9, c. 103, 6, c. 193].

bir daha təsdiq edir.[1]

Kaşşuların Şərqi Anadolu ilə tarixi bağlılığı toponimik faktlarla da təsdiqlənir:

1. Buruşhanda. E.ə. XXIII əsrdə Akkad hökmdarları I Sarqonun və Naram-Suenin yürüşləri ilə əlaqədar eposlarda xatırlanan bu şəhərin [13, c. 71] adındakı **Buruš-** komponenti kaşşuların Şimşək tanrısı **Burias** ilə [18, s. 2] müqayisə oluna bilər.

2. Kappadokiyanın bir hissəsi olan Tabal vilayəti II Sarqonun kitabələrində «kaşkaların ölkəsinin» (aşşurca: **MAT Kaš-ka-a-ia MEŠ**) qonşuluğunda göstərilir [13, c. 205; 6, c.175]. Antik dövrdə «Tabal» termini Anadolunun şərqi boyu uzanan dağlıq massivə şamil olunurdu və yunanlı müəlliflər onu «Tavr» adlandırırdılar. Bu coğrafi adın ən qədim forması – Tupliaş (burada – **iaš/yaš** kaşşu dilində «yer» «ərazi» anlamındadır) e.ə. XVI əsrdə Mesopotamiyanın cənubunda qeydə alınıb; kaşşular şumerlilərdən qalma Eşnunna şəhərini (müasir İraqda Təll-Əsmər qəsəbəsi) belə adlandırırdılar [12, c. 141, 419]. II Sarqonun kürəkəni Tabal çarı Ambarisin ismi [12, c.305] mənası bəlli olmayan **ambaru** kaşşu sözünü xatırladır [23, s. 867].

3. I Tiqlatpalasarın zamanında Nairi hərbi-siyasi birliyinə qoşulan Tunube vilayətinin adı kaşşu sözü **duni** ilə əlaqələndirilir [23, s. 870].

E.ə. I minilliyin əvvəllərində kaşşu elementlərinin tədricən Cənubi Qafqaza yayıldığını izləmək olur. Fikrimizi «Katarzah» toponiminin yer dəyişməsi təsdiq edir. Belə ki, e.ə. XII əsrin ikinci yarısında bu toponim Kiçik Zab çayının yuxarı axarında qeydə alındığı halda [26, № 54, s. 129], Menuanın və I Argiştinin kitabələrində (e.ə. VIII əsrin birinci yarısı) Urartu mixi yazı sistemində eyni samitin qoşa yazılışına yol verilmədiyindən «Katarza» formasında Göyçə gölünün şimal-qərb sahilinə edilən yürüşlər zamanı xatırlandığının şahidi oluruq [14, №№20, 127, 128 BI]. K.Balkan bu toponimin anlamını kaşşu dili əsasında izah etməyin tərəfdarıdır [18, s. 159].

Əhəməni imperiyasının təbəələri kimi kaspilər e.ə. V-IV əsrlərdə iki satraplıqda (inzibati ərazi vahidliyi) təmsil olunmuşlar. Xəzər sahillərindəki kaspilər pavsiklər, pantimantlar və dareytlərlə birgə XI satraplıqda, Anadolunun şimal-şərqindəki kaspilər (kaşkalar) isə skiflərlə birgə XV satraplıqda yaşayırdılar (Herod, III, 92, 93). Əhəmənilər imperiyasının süqutundan sonra hər iki satraplıq təxminən 140 il ərzində Atropatın varislərinin və Selevki strateqlərinin idarəçiliyinə keçir. Selevki hökmdarı III Antioxun e.ə. 190-cı ildə Maqneziya döyüşündə məğlubiyyəti onun sabiq sərkərdəsi Armeniya çarı I Artaksinin işğalçılıq planları üçün yeni imkanlar açır və Kaspiananın qərb hissəsi, digər ərazilərlə birgə, Atropatenadan qoparılaraq Armeniyanın tərkibinə qatılır [Strabo., XI, 14, 5]. Bu hadisə ilə əlaqədar Klavdi Ptolemeyin «Coğrafi təlimat» əsərində deyilir: <Midiyanın> Armeniyaya yaxın qərb hissəsini… Assuriya tərəfi boyunca kaspilər tuturdular».

«Coğrafiya» əsərinin digər bir yerində (XI, 4, 5) Strabon Kaspiananın Albaniyanın tərkibində olduğunu yazır. İlk nəzərdən ziddiyyətli görünən bu məlumatı Y.M.Mahmudov belə izah edir. E.ə. 165-ci ildə Selevki çarı IV Antiox Epifanın I Artaksi üzərində qələbəsindən sonra işğal altında olan ərazilər, o cümlədən Kaspiananın qərbi, Armeniyanın mərkəzi hakimiyyətinin nəzarətindən çıxır. Həmin vaxt Atropatena siyasi tənəzzül keçirdiyindən itirilmiş torpaqlarına sahib çıxa bilmir və Kaspiana bütövlükdə Albaniyanın tərkibinə qatılır [4, s. 102].

---

[1] Hat və kaşka (=kaşşu) etnoslarının genetik qohumluğu fikri şübhə doğurur. Quruluşuna görə hatların dili Şimal-Qərbi Qafqaz (abxaz-adıq) dillərini xatırladır [11, c. 26, 30, 33, 34]. Het kitabələrindən bizə təxminən 150 hat sözü çatıb və onlar müvafiq anlam daşıyan kaşu sözlərindən tamamilə fərqlənirlər. Məsələn, hatca **yah**, kaşşularda **dagigi** (və ya **ilulu**) «səma»; hatca **ištarrazil**, kaşşularda **miri** «yer», «torpaq»; hatca **puur**, kaššularda **yaš** «ölkə»; hatca **punan** (və ya **zari),** kaşşularda **meli** «insan»; hatca **tabarna,** kaşşularda **yanzi** (və ya **nula**) «hökmdar» və s. Bəzi oxşar terminlər kaşşuların hələ Babilistana yürüşünə qədər Kiçik Asiyanın şimal-şərqində hatlarla təmasının nişanəsi kimi sayıla bilər. Məsələn, kaşşularda **mašhu**=hatlarda **wašhab** «tanrı», kaşşularda **pur**=hatlarda **puri** «cənab», kaşşularda **gaddaš** (və ya **gandaš**) hökmdar titulu =hatlarda kattah «ilahə» və s. [21, s. 73-75].

Strabonun «Coğrafiya»sında kaspilərlə bağlı ziddiyyətli görünən digər məlumat da mövcuddur. Belə ki, Strabon öncə (XI, 4, 5) kaspilərin onun zamanında artıq mövcud olmadığını qeyd edir, bir qədər sonra isə (XI, 8, 7) Eratosfenə istinadən onların Xəzərin sahillərində, hirkan, amard, anariak, kadusi və alban tayfalarından «sonrakı» ərazilərdə, yəni bu tayfalardan şimalda məskunlaşdıqlarını bildirir. Görünür, birinci məlumat kaspilərin Arazdan cənubda əvvəllər məskunlaşdıqları əraziləri tərk etdiklərinə (və ya orada artıq qeydə alınmadıqlarna) işarə edir.

Antik dövrdə kaspilərin və onların birliyinə daxil olan albanların və digər tayfaların Qafqaza axını güclənir. XII əsrə qədər olan yazılı qaynaqlarda kaspilər, albanlar və onlarla eyni ittifaqda olan tayfalarla bağlı təsvir olunan hadisələr Qafqaz mühitində cərəyan edir.[1] Strabonun «Coğrafiya»sında (XI, 2, 15) və Yevstafinin (XII əsrin ikinci yarısı) «Dionisinin «Yerin təsviri» əsərinə şərhlər»ində (689) Qafqazın aborigen əhali tərəfindən «Kaspi» adlandığı bildirilir. Antik dövrdə Qafqazda qeydə alınan alban, kaşpi, leq, lak, lpenlərlə bağlı toponim, oronim və hidronimlər buraya yeni əhali axınının nəticəsi idi. Belə bir köçün baş verdiyini etnoqrafik səpgili məlumatlar da təsdiq edir. Strabon yazır ki, (XI, 11, 8) kaspilər yaşı 70-i keçən valideynlərini qapalı yerdə saxlayıb aclıqdan öldürür, sonra isə cəsədləri düzən yerlərə atırlar. Qədim coğrafiyaçı onu da qeyd edir ki, bu adət skif mənşəlidir (XI, 11, 3). Antik müəlliflərdən Porfiri (III əsr), Fələstinli Yevstafi (IV əsr) və Yestafi Yeronim (348-420-ci illər) kaspilərdə də bu adətin olduğunu qeyd edirlər. Bu adət kaspilərə Cənubi Qafqazda skiflərə qonşu olarkən keçə bilərdi.[2] Çünki onların uzun müddət yaşadıqları Babilistanda, Zaqrosda və Kiçik Asiyada belə adət qeydə alınmayıb.

Yazılı mənbələrdə «kaşşu», «kaşka», «kaspi» və «kissi»[3] adları ilə təqdim olunan əhalinin etnik mənsubiyyəti qaranlıq olaraq qalır. Ayrı-ayrılıqda onların etnik mənşəyinə dair müəyyən mülahizələr söylənsə də, mənə məlum olduğu qədər, elmi ədəbiyyatda bütövlükdə bu etnonimlərin eyniləşdirilməsi istiqamətində hər hansı təşəbbüs göstərilməyib. Məsələn, «kaşka» etnonimi qədim mənbələrdə adıgey və çərkəzlərə verilən adlarla (qədim erməni **qaş'k**, qədim gürcü **Kaşaq,** Bizans-yunan **Kasaxia,** ərəb **kaşak,** qədim rus **kosoq**) əlaqələndirirlər. Bununla belə, o da qeyd olunur ki, bu fakt kaşka tayfasını adıq-çərkəz (Şimal-qərbi Qafqaz) dil qrupuna aid etməyə əsas vermir [10, с. 12]. Yalnız kaşklara məxsus yer adlarındakı komponentlərin etimoloji təhlili nəticəsində onların müasir dillərlə genetik bağlılığı müəyyən oluna bilər. «Kaşşu», «Kaşka» və «Kaspi» terminləri eyni etnik substratla bağlı olduğundan onlara aid dil materiallarının paralel şəkildə öyrənilməsi bir çox mətləblərə nəinki yeni rakursdan baxmaq imkanı yaradar, hətta müasir mərhələdə Qədim Şərq tarixi üçün sensasiyalı görünəcək mülahizələrə yol aça bilər. Məsələn, «kaşka» və «kaşkay» terminləri arasındakı zahiri fonoloji bənzərlik ilk baxışdan təsadüfi görünə bilər. Çünki kaşkayların türk mənşəli olması nəticə etibarı ilə prototürklərin Ön Asiyada e.ə. III minilliyin ikinci yarısından gec olmayaraq «kaşşu» və «kaşka» adları ilə yayıldıqları anlamına gəlir. Elmi ədəbiyyatda kaspi tayfasının türkmənşəli olması fikri söylənsə də [6 с. 191-193], faktların birtərəfli və yetərsiz olması, mixi mətnlərdəki məlumatların müqayisəyə cəlb olunmaması və digər səbəblərdən tarixşünaslıqda ciddi qarşılanmayıb. Şübhə yoxdur ki,

1 Antik müəlliflərin əsərlərində «Qafqaz» coğrafi nomenklatura kimi yalnız Baş (və ya Böyük) Qafqaza şamil olunurda. 1826-1828-ci illərin Rus-İran müharibəsi başa çatdıqdan və Azərbaycanın şimal torpaqları Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra «Qafqaz» anlayışının coğrafi arealı Araza qədər süni surətdə xeyli genişləndirildi.

2 Kaspilərlə skiflərin qonşuluğunu Pomponi Mela «Yerin təsviri» əsərində belə ifadə edir: «skiflərə <hamıdan yaxın> olanlar Kaspi gölünün sahilində yaşayan kaspilərdir» (I, 2, 12).

3 Kaşşuların hakimiyyəti zamanı Babil çarlığında əhalinin müəyyən qrupu (məsələn, Kisiq şəhərinin sakinləri) həqiqətən də «kissi» (Herodotda **κισσιοι**) adı ilə qeyd oluna bilərdi. **Kissi, Kissuk** kimi kaşşu antroponimləri bu dövrün kitabələrində qeydə alınıb [18, s. 64].

bu istiqamətdə araşdırmaların genişləndirilməsi təkcə Ön Asiyanın deyil, Qafqazın da miladdan öncəki etnik mənzərəsinin müəyyənləşdirilməsinə töfhə verə bilər.[1]

Mövzu ilə bağlı bir neçə fakta diqqət yetirək.

1. Qədim türk dilində **kaşqa** sözü «təmiz», «şəffaf», «açıq rəngli» anlamlarında işlənir. Bunu kaşkaların zahiri əlaməti kimi qəbul etdikdə albanlar haqqında Qay Yuli Solinin (III əsr) «Maraqlı olanlar haqqında məcmuə» («Sbornik dostoprimeçatelğnostey») əsərində (XV, 5) yazdıqları yada düşür: «Albanlar… bəyaz saçlı doğulurlar və onların bəyazlığını xoş əlamət sayırlar…, xalq öz adını saçlarının bəyazlığından almışdır».

2. Kaşşu termini **yaš** «torpaq», «ərazi» [18, s. 155-156] qədim türk dilindəki **yazı** «düzən yer» sözü ilə müqayisə oluna bilər.

3. Kaşşu termini **bugaš** «öküz» qədim türk sözü **buğa** ilə müqayisə olunur [18, s. 102-104].

4. Kaşşuların **daqiqi** «səma» [18, s. 4, 147] termininin tərkibindəki **-gigi** elementi qədim türk dilindəki **gök** sözü ilə müqayisə oluna bilər.

Bu kiçik müqayisə qədim türk sözlərinin kaşşu dilində də olmasının izahını verməyə yetməsə də, bir fakt təkzibolunmazdır ki, kaşşuların Alban teonimi çox sonralar kazaxlarda, qırğızlarda, özbəklərdə, qaraqalpaqlarda və türkmənlərdə bəzi etnik qruplara şamil olundu [7, c. 74]. Ön Asiya və Qafqazla olan etnomədəni əlaqələr sonda Orta Asiyada kaşşularla (və ya kaşkalarla, kaspilərlə) bağlı etnotoponimlərin (Kazax, Kaşkadərə, Kaşğar, Kəşmir və s.) meydana gəlməsi ilə nəticələndi.

Beləliklə, aparılan ilkin araşdırmalar antik dövrdə Alban tayfa birliyində təmsil olunan bəzi etnosların (kaspilərin, albanların, leqlərin və digərlərinin) əslində Qafqazmənşəli olmadığını və əvvəlki yüzilliklərdə Ön Asiyada gedən etnosiyasi proseslərdə yaxından iştirak etdiklərini söyləməyə əsas verir. Adlarını sitayiş etdikləri tanrılardan alan kaspilər və albanlar bu hərbi-siyasi birliyin aparıcı qüvvəsi olmuşlar. Onların gəlişi ilə Qafqazın etnomədəni mənzərəsi xeyli zənginləşdi, tayfalararası mübadilənin intensiv hal alması ilə əlaqələr daha da genişləndi. Zəngin idarəçilik ənənəsi, hərbi qüdrəti və mədəni quruculuq təcrübəsi sayəsində kaspilər və albanlar – kaşşu və kaşkaların varisləri, yeni vətənləri Qafqazın cənubunda qonşu aborigen tayfaların potensialına arxalanaraq tarix səhnəsində 1000 il yaşayacaq Azərbaycan Alban dövlətinin təməlini qoydular.

[1] Kaşka-türk dil materialının müqayisəli təhlilindən alınan maraqlı nəticələrə dair bax: 1, s. 47-53.

## ƏDƏBİYYAT

1. Ağasıoğlu F. Azər xalqı. Bakı, 2000.
2. Əlimirzəyev A.N. Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV-III minilliklər). Bakı, 2011.
3. Əlimirzəyev A.N. Azərbaycanın Naxçıvan bölgəsinin Urartu ilə siyasi əlaqələri tarixindən / Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumunun materialları). Naxçıvan, 2013, s. 112-114.
4. Mahmudov Y. Real tarix və «Böyük Ermənistan» uydurması. Bakı, 2014.
5. Novruzov Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı, 1993.
6. Арутюнян Н.В. Топонимика Урарту. Ереван, 1985.
7. Гейбуллаев Г.А. К этногенезу Азербайджанцев. Баку, 1991.
8. Георгадзе Г.Г. К вопросу о локализации и языковой структуре касских этнических и географических названий/Переднеазиатский сборник. Вопросы хеттологии и хурритологии. Москва, 1961, с. 161-210.
9. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV века до н.э. Москва-Ленинград. 1956.
10. Дьяконов И.М. Предыстория армянского народа. Ереван, 1968.
11. Иванов В.В. Об отношении хаттского языка к северозападно-кавказским / Древняя Анатолия. Москва, 1985, с. 26-59.
12. История древнего Востока. Зарожде-

ние древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I. Москва, 1983.
13. Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья. I (Наири-Урарту). Тбилиси, 1954.
14. Меликишвили Г.А. Уратские клинообразные надписи. Мосва, 1960.
15. Меликов Р.С. Этническая картина Азербайджана в период Ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку, 2003.
16. Мещанинов И.И. Халдоведение. История древнего Вана. Баку, 1927.
17. Мещанинов И.И. Аннотированный словарь Урартского (биайнского) языка. Ленинград, 1978
18. Balkan K. Kassitenstudien. 1. Die Sprache der Kassiten. American Oriental Series. Vol. 37. New Haven, 1954.
19. Diakonoff I.M., Kashkai S.M. Geographical Names According to Urartian texts. Réportoire Géographique de Texts Cunéiforms. Band. 9. Wiesbaden, 1981.
20. Grayson A.K. The Royal Inscriptins of Mesopotamia. Assyrian Periods. Vol. 2. Rulers of the First Millenium BC. I (1114-859 BC). Toronto-Buffalo-London, 1990.
21. Heinz F. Zur Geneologischen Einordnung der Hattischen und Kassitischen Sprache / Georgia. Jena-Tbilissi, 1980, s. 73-75.
22. Herzfeld E. The Persian Empire. Studies in geography and etnography of the Ancient Near East. Wiesbaden. 1968.
23. Jaritz K. Die Kassitischen Sprachreste // Anthropos, 1957, Vol. 52, fasc. 5-6, s. 850-898.
24. Jaritz K. Die Kulturreste der Kassiten // Anthropos, 1960, Vol. 55, fasc. 1-2, s. 78-83.
25. Laroche E. Glossaire de la langue hourrite. Paris, 1980.
26. Konig F.W. Die Elamische Kιonigsinschriften. Graz, 1965.

***Алимирзоев Аллахверди Нуси оглы***

## РАННЯЯ ИСТОРИЯ АЛБАНСКИХ ПЛЕМЁН В КЛИНОПИСНЫХ ТЕКСТАХ ПЕРЕДНЕЙ АЗИИ

## I. КАСПИИ

### *РЕЗЮМЕ*

Каспии являлись одним из древнейших племён Албании. Принято считать, что ранние упоминания о них содержатся в папирусах Элефантины и «Истории» Геродота, датируемых V в. до н.э., т.е. когда ещё не существовало само Албанское государство. Попытки отождествлять это племя с такими созвучными этнонимами древневосточных клинописных текстов как «кашшу», «кашка», не дали положительных результатов. Исследовании в этом направление подтверждают мнение австрийского учёного К.Яритца о малоазийской происхождении касситов (= «кашшу» вавилонских надписей). Разбор топонимического материала позволяет предполагать, что после падения власти касситов в Двуречье (около 1140 г. до н.э.) основная их масса через Луристан продвинулась дальше к берегам Каспийского моря. Этой же группе в IX-VIII вв. до н.э. удалось установить своё господство в царствах Намар, Хубушкия, Аллабрия и возможно в Манне, о чём говорит касситский титул «янзи» их правителей.

Данные текстов ассирийских царей свидетельствуют о том, что этот же этнос под названием «кашка» ещё в VIII в. до н.э. продолжал обитать на северо-востоке Анатолии. Тогда же часть кашкайцев стала подданными Ассирии, другая же группа мигрировала на юг Закавказья.

Лингвистические данные указывают на то, что этнонимы «кашшу» и «кашка» восходят к названию бога Луны. Так, «Кашка» было именем бога Луны у хаттов, ближайших соседей кашкайцев. Видимо тем же божеством у касситов являлось Кашшу. В пантеоне касситов опреде-

лённое место принадлежало также божеству Албан, имя которого в качестве компонента засвидетельствовано в теофорных именах Бурра-Албан (из архива хурритской Нузи), Албади-Сах и названиях области Албада и города Бит-Албада (в вавилонских текстах Касситского периода). Несколько слов с начальным компонентом **каш-**, а также термина **алпа** обнаружено в текстах хурритов, восточных соседей кашкайцев.

Племя, почитавшее бога Албан при Тиглатпаласаре I (1114-1077 гг. до н.э.) сумело создать небольшие царства Албая (современный Албан-тепе) и Шуруриа (современный Шарур) на территории Нахчывана. После распада военно-политического союза Наири, куда входили эти царства, Албая превратилось в руины и нашло отражение в топониме Куа-Албани в Ванской надписи Сардури I (760-730 гг. до н.э.): топоним Куа-Албани дословно означает «Разрушенное Албани» (от биайнского **ку/куа-** «разрушать», «покидать», «оставлять»).

Современные Нахчыванские оронимы Ахура и Пусян по звучанию можно сопоставить с такими древними географическими названиями, как Ахуриа (из надписи Аргишти I) и Пузуни (из надписи Сардури II), Пузури (кашкайский топоним в хеттских текстах) или же с названием албанского племени Пусх, известного из «Армянской географии VII в.». По всей вероятности каспии (они же касситы, кашкайцы), пусхи, леги и другие этнические группы до переселения на Кавказ и вхождения в состав Албанского племенного союза обитали на северо-восточной части Анатолии и прилегающих областях Южного Азербайджана.

***Alimirzayev Allahverdi Nusi oglu***

# THE EARLY HISTORY OF THE ALBANIAN TRIBES IN THE CUNEIFORM TEXTS OF NEAR EAST

## I. CASPIANS

## *SUMMARY*

The Caspians were one of the most ancient tribes of Albania. It is generally accepted that the earliest mention of them is contained in the Elephantine papyri and "History" by Herodotus, dating back to V BC, i.e. when there still was no Albanian state. Attempts to indentify the tribe with such conformable etnonyms ancient eastern cuneiform texts as “kashshu”, “kashka” haven't yielded positive results. Investigations in this field confirm the view of Asia Minor origin of the Kassites (= "kashshu" Babylonian inscriptions). The analysis of toponymical materials suggests that after falling of the power of the Kassites in Mesopotamia (about 1140 BC) the bulk of them advanced farther via Luristan to the shore of the Caspian Sea. This group managed to establish their dominance in the kingdoms of Namar, Khubushkia, Allabria and possibly in Manna which is the evidence of the Kassite title "yanzi" of their rulers.

Data of the Assyrian kings is evidence that the same ethnic group called "kashka" still in the VIII century B.C. continued to dwell on the north-east of Anatolia. At the time one part of the kashka become the Assyrian’s subjects and the other part migrated to the south of Transcaucasia.

Linguistic evidence indicate that the ethnonyms "kashshu" and "kashka" ascend to the name of the god of the Moon. Thus, “Kashka” was the name of the god of the Moon at the Hittites – the nearest neighbours of the kashka. Probably the same deity at the Kassites was Kashshu. In the pantheon of the Kassites the certain place belonged also to the Albanian deity which name is attested as an entry in theophoric names Burra-Alban

(from the archive of the Hurrian Nuzi), Albadi-Sah and the names of the district and city Bit-Albada (in the Babylonian texts of Kassite period). Some words with an initial component of **kash-**, as well as the term **alpa** are revealed in the texts of the Hurrians – the eastern neighbors of the kashkas.

The tribe, esteemed the god Alban during the rule of Tiglatpalasar I (1114-1077 B.C.) has managed to create a small kingdom Albaya (modern Alban-Tepe) and Shururia (modern Sharur) in Nakhchivan. After the collapse of the military-political alliance Nairi, which included these kingdoms Albaya has turned into ruins and has found reflection in the placename Kua-Albani in Van inscription of Sarduri I (760-730 B.C.): toponym literally means “Destroyed Albani” (from biaynians **ku/kua-**"destroy”, "leave", "abandon").

Sounding of the modern Nakhchivan oronyms Akhura and Pusyan can be compared with such ancient geographical names as Ahuria (from the inscription of Argishty I) and Puzuni (from the inscription of Sarduri II), Puzuri (the kashka’s placename in the Hittite texts) or with the name of the Albanian tribe Puskh, known from “Armenian geography of the VII century”. Most likely, the Caspians (they are also the Kassites, the kashka), puskhs, legis and other ethnic groups before resettlement to Caucasus and becoming a part of the Albanian tribal union dwelt on the north-eastern part of Anatolia and adjoining areas of South Azerbaijan.